Caspian Engineering Solutions
Warranty of Quality

# KEYFİYYƏT, SAĞLAMLIQ, ƏMƏYİN TƏHLÜKƏSİZLİYİ VƏ ƏTRAF MÜHİT SİYASƏTİ (KSƏTƏM)

"Caspian Engineering Solution" MMC – in cari siyasəti keyfiyyət, sağlamlıq, əməyin təhlükəsizliyi, müştəri məmnuniyyəti və ətraf mühit imkanlarını üstün tutaraq, bütün cari və potensial müştərilər üçün yüksək səviyyəli xidmət təmin etməyi nəzərdə tutur.

Şirkət, KSƏTƏM siyasətinin yayılması, eyni zamanda Azərbaycan Respublikasının Qanunvericiliyindən, Beynəlxalq standartların tələblərindən irəli gələn bütün lazımi müddəaların icra edilməsi və bununla yanaşı işçi heyət tərəfindən tam başa düşülməsini bütün səviyyələrdə təmin edir. Bunun üçün iş sahələrində və laboratoriya sınaqlarında riskləri qiymətləndirməklə iş mühitini tam təhlükəsiz saxlayır, çirklənmənin qarşısını alır və idarəetmə sisteminin effektiv işləməsini təmin edir. Risklərin nəzarət altında saxlanması və monitorinq olunması üçün İnteqrəolunmuş Menecment Sistemi normal biznes qərarlarının verilməsinə şərait yaradır.

Şirkətimiz müştəri məmnuniyyətinin ən yüksək səviyyədə saxlanılması üçün davamlı inkişaf yolunu özünə amal seçmişdir. Bu yolda biz müştəri məmnuniyyətini daima yüksək səviyyədə saxlamaq üçün önləyici tədbirlər görür, eyni zamanda bütün təklif və şikayətləri tam araşdırır və mümkün inkişaf yollarını mənimsəyirik. Bizim üçün müştəridən gələn hər hansı bir rəy inkişaf üçün fürsətdir. Bu fürsətlər bizi növbəti layihələrimizdə alacağımız rekomendasiya məktublarına apacaqdır.

Məlumat yeniliyinin təmin edilməsi üçün Şirkətimiz ən azı ildə bir dəfə yerli, beynəlxalq qanunvericilik və standartların tələblərini nəzərdən keçirərək bu prosesi daim aktiv saxlayır.

Davamlı inkişaf üçün KSƏTƏM siyasətimiz aşağıdakı KSƏTƏM prinsiplərini rəhbər tutur:

- İSO 9001:2015 Keyfiyyət İdarəetmə Sistemləri
  - Təşkilatın məqsəd və konteksinə uyğun olan və onun strateji istiqamətini dəstəkləyən öhdəlik;
  - KİS məqsədlərinin müəyyən edilməsi;
  - Müvafiq tələblərə cavab vermək üçün öhdəlik;
  - KİS – in davamlı inkişafı üçün öhdəlik.
- İSO 14001:2015 Ətraf Mühit İdarəetmə Sistemləri
  - Təşkilatın kontekst və məqsədinə uyğun olaraq onun fəaliyyət, məhsul və xidmətlərinin ətraf mühit və təbiətə təsiri ilə bağlı öhdəlik;
  - ƏM məqsədlərinin müəyyən edilməsi;
  - Təşkilatın kontekstinə uyğun olaraq çirklənmənin qarşısının alınması və digər xüsusi öhdəliklər daxil olmaqla ətraf mühitin qorunması üçün öhdəlik;
  - İcbari tələbləri yerinə yetirmək üçün öhdəlik;
  - Ətraf mühit performansını artırmaq üçün EİS davaçlı inkişafına dair öhdəlik.
- İSO 45001:2018 Sağlamlıq və Əməyin Təhlükəsizliyi İdarəetmə Sistemləri
  - Təşkilatın məqsədinə, ölçüsünə, kontekstinə eləcə də, SƏT riskləri və imkanlarına uyğun olaraq işlə bağlı xəsarət, xəstəliyin qarşısının alınması üçün təhlükəsiz və sağlam iş şəraitinin təmin edilməsi üçün öhdəlik;
  - SƏT məqsədlərinin müəyyən edilməsi;
  - Hüquqi və digər tələbləri yerinə yetirmək üçün öhdəlik;
  - Təhlükələri aradan qaldırmaq və SƏT risklərini azaltmaq üçün öhdəlik;
  - SƏT idarəetmə sisteminin davamlı təkmilləşdirilməsi üçün öhdəlik;
  - İşçilərin və yaxud işçilərin nümayəndələrinin məsləhətləşmə və iştirakı üçün öhdəlik.

"Öncə zəmanət, sonra nəzarət"

Camaləddin Əliyev

Direktor

CASPIAN ENGINEERING SOLUTIONS